# Mərasim və ayinlərlə zəngin milli bayram

**Novruz təbiətin oyanışı, təbiət qüvvələrinə inam hissini aşıladığı üçün əziz bayram kimi qeyd olunmuşdur. Təzə ilin gəldiyi dəqiq vaxt münəccimlər tərəfindən hesablanar, bununla da "təhvil saxlamaq" adəti icra olunardı. Ümumiyyətlə, ötüb keçmiş dövrlərdə ilin təhvil olunma anına xüsusi diqqət yetirilərdi. Hətta əhaliyə ilin təhvil olunduğunu bəyan etmək məqsədilə evlərin damlarında tonqallar qalanar, təbil çalınardı, Novruz "topu" atılardı. Bundan əlavə, iltəhvil saatını hər kəs öz evində də müəyyənləşdirə bilərdi, bunun üçün müəyyən məqamlara diqqət yetirmək vacib sayılırdı.**



Məsələn, xırda balıqların bir anlığa donub qalması, yaxud əksinə, onların sudan quruya can atması, "təhvil suyu" adlandırılan, xüsusi qaba yığılmış suyun üzərindəki zeytun yarpaqlarının, güzgü üzərində yumurtanın hərəkəti və s. iltəhvil anının göstəriciləri hesab olunurdu. İlin təhvil olunduğu zaman ailə başçısının evinə, ailəsinə xeyir-dua verməyi də xüsusi əhəmiyyət daşıyırdı ki, buna "təhvil-təslim duası" deyilirdi.

Maraqlı rituallardan biri də budur ki, il təhvil olunduqda evin ən kiçiyi şamları yandırır, evin böyüyü isə səməni otunu bir az qayçılayır, sonra onu özündən kiçik ailə üzvlərinə verərdi. Bu ayini kiçikdən tutmuş böyüyə kimi hamı icra etməli idi. Bu ritualdan sonra ailə başçısı öz hədiyyələrini hamıya paylayardı. Hədiyyələr arasında qızıl, gümüş, mis pullar, nabat, bal xüsusi önəm daşıyırdı. Həmçinin bayram günü hamı qırmızı və ya yaşıl rəngdə təzə paltar geyinməli idi.

Novruz axşamında icra olunan adətlərdən biri də dünyasını dəyişən əzizlərin ruhlarını yad etmək, məzarlarını ziyarət etməkdir. Bayram plovu bişirilərkən onların adları bir-bir çəkilməlidir ki, həmin adamların ruhları sevinsin, ailəyə, evə xeyir-dua versinlər. Hətta adətə görə, bayram axşamı süfrənin künc tərəfində heç kim oturmamalıdır, çünki inanca görə "ata-baba ruhları" süfrəyə küncdən yaxınlaşıb Novruz təamlarından dadmalıdır. Əgər evlənmə yaşına çatan gənclərdən kimsə ruhların qarşısını kəsərsə, onda onlar qəzəblənər, həmin cavanlar yeddi il ailə qura bilməzlər. Mənbələrə görə, ailənin ağsaqqalı, böyüyü evin başına üç dəfə dolandıqdan sonra gəlib evin qapısını döyür, ondan "kimsən, nəçisən, nə gətirmisən?" soruşanda isə cavab verir ki: "Sizə özümlə təzə il, səadət və əmin-amanlıq gətirmişəm, izn verin gəlim". Sonra qapını açıb onu içəri dəvət edirlər. "Müjdəçi" adlandırılan həmin adam evə əlidolu daxil olmalı idi, o, əlindəki naz-neməti evin hər tərəfinə, qalanını isə ailə üzvlərinin üzərinə səpərdi. İnanca görə, bayram axşamı kim hansı əhvali-ruhiyyədə olarsa, bütün ilboyu o cür olar, ona görə də ulu babalarımız "Novruzda gülən, ilboyu gülər" demişlər.

Novruz bayramının möhtəşəm ayin və ritual sistemi vardır. Mənbələrə görə , həmin adətlər içərisində qıfıl və ya düyünaçma maraq doğurur. Bu adətin məqsədi odur ki, insanların müşkül işləri həll olunsun, çətinliklərdən, əzab-əziyyətdən çıxsınlar. Həmin rituala görə, paltar, dəsmal, yaxud çarşabların ucunu düyünləyib niyyət edirlər, evdən çıxıb bir yerdə oturar və həmin yerdən keçən ilk şəxsdən xahiş edərlər ki, düyünü açsın. Əgər bu işi rahatlıqla icra edirdilərsə, niyyətin baş tutacağına inanardılar. İnanca görə, bayram günü evdə bağlı, düyünlü, qıfıllı heç nə qalmamalı, hətta paltarların yaxası belə açılmış vəziyyətdə olmalı idi. Mənbələrə görə, Novruzun axır çərşənbəsində icra olunan ayinlərdən biri də qaşıqla kasa çalmaqdır. Tədqiqatçılar hesab edirlər ki, "bu adət əkinçi tayfalarının birinin digərindən əkin üçün toxumluq dən nümunələri toplamaq adətini xatırladır".

Şalsallama isə əsasən cavanların iştirak etdiyi bir ayindir. İlaxır çərşənbədə subaylar örpək, kəlağayı, torba, corab, dolça, dəsmal və ya bel şalını götürüb sevib-seçdikləri qızların yaşadığı evlərə gedib damdan, bacadan, yaxud pəncərədən "şal sallayardılar". İnanca görə, şalı boş qaytarmaq qəbahət sayılar, şalın içinə evdə olan bayram nemətlərini doldurub qoyar və şala bağlayardılar. Şala qızların toxuduqları corab, dəsmal və sairə əşyaları bağlayar, bununla da oğlana öz razılıqlarını bildirərdilər. Mənbələrə görə, bu ayinə Urmiyada da rast gəlmək mümkündür, fərqli cəhət isə ondan ibarətdir ki, cavanlar damdan şal əvəzinə dolça, yaxud kəcavə sallayardılar, bununla da niyyətlərinin boş olmamasına inanardılar.

Müasir dövrümüzdə qədim şalsallama adəti "papaqatdı" ilə əvəz olunub, bu da səbəbsiz deyildir. Şəhər mühitində yaşadığımız bina evlərinin damından, bacasından, yaxud pəncərəsindən şal sallamaq qeyri-mümkündür. Təəssüf ki, qədim şalsallama adəti bir çox digər ayinimiz kimi, milli məişət həyatımızı tərk etməkdədir. Amma bu ayinin yaranması təsadüfi olmayıb. Çünki qədim ənənəni özündə yaşadan şalsallama, əslində, "ata-baba ruhunu" təmsil etmək məqsədilə yaranıb, yəni bu adəti icra edən cavanlar gözə görünməyən "ata-baba ruhlarını" təcəssüm etdirir.

XX yüzilliyin Şərq şeirinin görkəmli simalarından olan Şəhriyarın "Heydərbabaya salam" poemasında Novruz bayramı, onun adət-ənənələri və sair poetik dillə diqqətə çatdırılır:

*Bayram yeli çardaxları yıxanda,*
*Novruzgülü, qarçiçəyi çıxanda*
*Ağ buludlar köynəklərin sıxanda*
*Bizdən də bir yad eləyən sağ olsun,*
*Dərdləriniz qoy dikəlsin, dağ olsun...*
*Bayram idi gecə quşu oxurdu,*
*Adaxlı qız bəg corabı toxurdu,*
*Hər kəs bir bacadan soxurdu,*
*Ay nə gözəl qaydadı şal sallamaq,*
*Bəg şalına bayramlığın bağlamaq.*

*Şal istədim mən də evdə ağladım,*
*Bir şal alıb tez belimə bağladım,*
*Qurbangilə qaşdım, şalı salladım,*
*Fatma xala mənə corab bağladı,*
*Xan nənəmi yada salıb ağladı.*

*Bayram olub, qızıl palçıq əzəllər,*
*Naxış vurub, otaqları bəzəllər*
*Taxçalara düzmələri düzəllər,*
*Qız-gəlinin fındıqçası, hənası,*
*Həvəslənər anası, qaynanası...*

Mənbələr göstərir ki, bayram axşamlarında kuzə falını icra edərdilər. Axşamüstü xanımlar bir kuzəni götürüb onun içinə müxtəlif əşyalar atardılar, məsələn, üzük, sırğa, düymə və sair. Kuzəni bulaq suyu ilə doldurub ağzını güzgü ilə örtüb qoyurlar. Çərşənbə gecəsinin səhəri gün çıxandan sonra qadınlar ayini sona çatdırmaq məqsədilə yenə bir yerə yığışır. Balaca bir qız kuzədən əşyaları bir-bir çıxarır, çıxardıqca iştirakçılardan biri həmin tərəfə baxmır, ürəyində niyyət tutur. Kuzədən çıxarılan əşyalar barədə müəyyən sözlər deyilir ki, bu da həmin əşyanın yiyəsinin niyyətindən xəbər verir.

Novruz süfrəsi insan sağlamlığını möhkəmləndirən, insanın ömrünü uzadan müxtəlif nemətlərlə zəngindir. Bu nemətlər arasında "yeddiləvin", yəni "s" hərfi ilə başlanan nemətlərin - su, səməni halvası, südlü aş, süd, süzmə, səməni şorbası və onun üzərinə səpmək üçün sumaq qoyulmalıdır. Vaxtilə hamı bayram süfrəsinin ətrafına "Novruz topu" atılandan sonra toplaşardı. Bayram axşamı hər evdə bayram plovu dəmlənir, bəzi bölgələrdə quru balıqla bişirilən südlü plov, şirin plov, əriştəli aş, qaralı aş və s. təamlar hazırlanır. Novruz xonçasının tarixi çox qədim dövrlərlə bağlıdır. Xonçaya düzülən ənənəvi Novruz şirniyyatları, qırmızı alma, boyanmış yumurta və s. hər biri erkən mifoloji təsəvvürləri əks etdirir.

Etiqada görə, Novruz süfrəsində hər ailə üzvünün adına şam yandırılır, hətta evdə olmayan, yaxud dünyasını dəyişmiş üzvü də yad edilsin deyə adına şam yandırılardı. Şamları yarımçıq söndürmək olmaz, onlar axıra kimi yanmalıdır.

Novruz həm də sülh, dostluq, həmrəylik, humanizm bayramıdır. Bu bayramda hamı öz sevinci ilə paylaşmalı, hər kəs kədərdən uzaq olmalıdır. İnsanlar bu əziz bayramı səbirsizliklə gözləyir, çünki onun gəlişilə qəlblərə istilik , xoşbəxtlik və xoş duyğular gəlir.

Azərbaycanda olan milli-mənəvi və multikultural ənənələr dünyanın əksər dövlətlərinə nümunə olacaq mədəni, etik-estetik dəyərlərin göstəricisi olduğu kimi, həm də müxtəlif xalqlar arasında möhkəm birliyin, sülhün və həmrəyliyin əyani sübutudur.

**Ülkər NƏBİYEVA,**
**Bakı Dövlət Universitetinin professoru, filologiya elmləri doktoru**

Azərbaycan.- 2025.-14 mart (№56).- S.15.